

*«Hər bir ölkənin idman potensialını nümayiş etdirən, ilk növbədə, idmançıların çıxışlarıdır, uğurlu nəticələrdir... Sadaladığım bütün bu amillər uğurlu nəticələr əldə etmək üçün başlıca şərtdir. Çox şadam ki, Azərbaycanda bütün bu amillər mövcuddur.»*

*İlham Əliyev*

# Kitabxanalar və Olimpiya kompleksləri

2007-ci ildə Azərbaycan Milli Olimpiya Komitəsinin yaradılması-nın 15 illiyi tamam olur. 2007-ci il həm də Azərbaycan idmançılarının Olimpiya oyunlarında iştirakının 55 illik yubileyidir.

Azərbaycan idmançıları SSRİ yığma komandasının tərkibində Olimpiya oyunlarının 9-da 46 idmançı ilə çıxış edərək 10 qızıl, 11 gümüş və 7 bürünc medal qazanmışdır.

1992-ci ildə Milli Olimpiya Komitəsinin yaradılması ilə ölkəmizin Olimpiya hərəkatında yeni bir dövr başlandı. Azərbaycan ilk dəfə olaraq 1996-cı il Atlanta Olimpiyadasında 23 nəfərdən ibarət öz milli olimpiya komandası ilə müstəqil Azərbaycan Respublikasının üçrəngli bayrağı altında çıxış etdi. 197 ölkənin iştirak etdiyi bu oyunlarda gənc Azərbaycan Respublikasının 61-ci yeri tutması idmanımızın uğuru sayıla bilər.

Azərbaycan Milli Olimpiya Komitəsinin 1997-ci il iyulun 31-də keçirilmiş Baş Məclisində təşkilat məsələlərinə baxılaraq, onun yeni heyətinin seçilməsi komitənin fəaliyyətində müsbət istiqamətlərdə əsaslı dönüş yarada bilmiş, ölkəmizdə olimpiya hərəkatının sürətli inkişafına təkan vermiş və onun Beynəlxalq Olimpiya hərəkatına fəal qoşulmasını təmin etmişdir. Azərbaycan Milli Olimpiya Komitəsi ölkəmizdə olimpiya hərəkatının və idmanın inkişafı ilə bağlı məqsədyönlü, ardıcıl fəaliyyət göstərərək, qısa müddət ərzində uğurlu göstəricilər əldə etmişdir. Oyunlara hazırlıq işlərinin vaxtında və dövlət səviyyəsində aparılması öz müsbət nəticələrini verdi. Həyata keçirilmiş tədbirlər nəticəsində Azərbaycan idmançılarından 31 nəfər 10 idman növü üzrə 2000-ci il XXVII Yay Olimpiya Oyunlarına vəsiqə qazandı və Azərbaycan ikinci dəfə müstəqil dövlət kimi olimpiyada da iştirak etdi.

Olimpiya oyunlarında iştirakın bu günə qədərki tarixinin ən parlaq səhifələri 2000-ci ildə Avstraliyanın Sidney şəhərində keçirilmiş XXVII Yay Olimpiya Oyunlarında yazıldı.

Sidney oyunları zamanı Milli Olimpiya Komitəsinin rəhbərliyi bir sıra tədbirlərin təşkilatçısı və iştirakçısı oldu. Sentyabr ayının 18-də Sidneydə "Recent" otelində "Azərbaycan günü" keçirildi. Məclisdə Beynəlxalq və Avropa Olimpiya Komitəsinin rəhbərləri, Beynəlxalq Federasiyaların, Milli Olimpiya Komitələrinin prezidentləri, ayrı-ayrı ölkələrin idman nazirləri, görkəmli idmançılar iştirak etdilər.

Azərbaycan Beynəlxalq Olimpiya Komitəsinin "Olimpiya Oyunları uşaqların gözü ilə" beynəlxalq müsabiqəsinin iştirakçısıdır. Bu müsabiqəyə Azərbaycan məktəblilərinin 122 rəsm əsəri təqdim edilmiş, onlardan biri birinci, digəri isə dördüncü yerə layiq görülmüşdür.

Hər bir Milli Olimpiya Komitəsinin əsas vəzifəsi, təbii ki, ölkəsinin Olimpiya Oyunlarında təmsil olunmasını təmin etməkdir. Ona görə də Milli Olimpiya Komitəsinin fəaliyyətini əsas qiymətləndirmə meyarı, şübhəsiz ki, Olimpiya Oyunlarında iştirak və bu oyunlarda göstərilən nəticələr sayılır. İdmançılarımız Azərbaycan bayrağı altında üç dəfə yay – Atlanta - 96, Sidney - 2000, Afina – 2004, üç dəfə də qış olimpiya Oyunlarında – Naqano – 98, Solt leyk Siti – 2000, Afina – 2004 olimpiya oyunlarında iştirak etmişdir.

2002-ci ildə Beynəlxalq Olimpiya Komitəsinin himayəsi altında MDB və Baltikyanı ölkələrin Moskvada keçirilən yeniyetmələr oyunlarında Azərbaycan daha böyük komanda ilə, daha çox idman növü üzrə təmsil olundu.

Milli Olimpiya Komitəsi Azərbaycanda Olimpiya hərəkatının daha da genişləndirilməsi, onun maddi-texniki bazasının möhkəmləndirilməsi, idmançılarımızın hazırlıq səviyyəsinin yüksəldilməsi üçün onların beynəlxalq yarışlarda iştirakının təmin olunması yolunda səmərəli fəaliyyət göstərir. Xü-

susilə qeyd edilməlidir ki, Milli Olimpiya Komitəsi bu mühüm vəzifələrin həyata keçirilməsi üçün ölkənin müxtəlif dövlət və ictimai qurumları ilə, habelə dünyanın ayrı-ayrı olimpiya və idman təşkilatları ilə sıx əməkdaşlıq əlaqələri yarada bilmişdir.

Azərbaycan xalqı idmançılarımızdan 2004-cü il Afina Olimpiyadasında razı qalmışdır. Azərbaycanımızın üçrəngli bayrağı, himnimizin sədaları qədim yunan torpağında göylərə qaldırılmışdır. Afina Olimpiyadası vaxtında "Azərbaycan günü" keçirilmiş və prezident İlham Əliyev şəxsən iştirak etmişdir. Afina – 2004 olimpiyadasında 9 növ idman növü üzrə 38 idmançımız iştirak etmişdir.

2000-ci ildən başlayaraq Azərbaycan Olimpiya Komplekslərinin tikintisi geniş vüsət almışdır. 2000-ci il oktyabrın 20-də Bakıda ilk Olimpiya Kompleksi istifadəyə verildi. Azərbaycanın daha bir çox şəhər və rayonlarında – Naxçıvanda, Gəncədə, Maştağada, Bərdədə, Lənkəranda, Qubada, Qusarda, Şəkidə, Zaqatalada və başqa regionlarda Olimpiya Kompleksləri istifadəyə verilmişdir. Bunlardan əlavə "Atıcılıq stendi", "Taekvando sarayı", "Yaxt klub" kimi idman kompleksləri fəaliyyət göstərir.

Məlum olduğu kimi, ölkənin iqtisadi inkişaf proqramı ilə əlaqədar olaraq respublikanın ayrı-ayrı zonalarında olimpiya kompleksləri istifadəyə verilmiş və bunların tikintisi davam etdirilir.

Kitabxanalarla mədəni-maarif müəssisələrinin qarşılıqlı əlaqəsi hal-hazırda yenicə yaradılmış olimpiya komplekslərinin fəaliyyətində yeni formalarda təzahür olunur.

Olimpiya Komplekslərinin qarşısında xüsusi və konkret məqsədlər qoyulmuşdur. Onların həqiqi imkanlarını nəzərə alaraq lazımi iş metodları nəzərə alınmış, aydınlaşdırılmış, ideya-siyasi, əmək və mənəvi tərbiyənin sıx vəhdətini təmin etmək üçün öz öhdəsində olan imkanlardan səmərəli istifadə olunur.

Vətəndaşların sağlamlıq işini dövrün tələbləri səviyyəsinə qaldıraraq, Olimpiya Kompleksləri bu işin sosial-iqtisadi məsələlərin həllində adamların ictimai fəaliyyətini artırmağa yönəltmişlər. Olimpiya Kompleksləri öz işlərində «Azərbaycanda Olimpiya hərəkatı haqqında» qərarını rəhbər tuturlar. Olimpiya Kompleksləri öz işlərini qabaqcadan hazırlanmış tədbirlər planı əsasında qururlar. İqtisadi inkişaf və onda baş verən sosial dəyişikliklər xalqımızın maddi rifahının daha da yaxşılaşdırılması, eləcə də respublikanın sosial-iqtisadi və mənəvi inkişafının sürətləndirilməsi vəzifələrinin həyata keçirilməsi hər şeydən əvvəl əməyə şüurlu, yaradıcı münasibət tələb edir. Elm və texnikanın həyata tətbiqi həm də iş adamlarının ideya-siyasi, mənəvi, estetik tərbiyəsi ilə sıx birləşdirilməlidir. Təsadüfi deyil ki, mühüm dövlət sənədlərində dəfələrlə qeyd edilir ki, hər cür yeniləşmə fərdi təfəkkürün yenidən qurulmasından başlayır. Bütün bunlar da mənəvi sərvətimiz olan kitablarla bağlıdır. Daha doğrusu, kütləvi tədbirlər mərkəzi olan kitabxana - Olimpiya Komplekslərinin birgə fəaliyyəti şəraitində həyata keçirilir. Bu da öz növbəsində mədəniyyətin müxtəlif sahələrində marağı olan həvəskar «sənətkarların» müəssisələrin tapşırığını yerinə yetirdikdən sonra qalan asudə vaxtını özünün həvəskarlıq məsələlərinə həsr etməsi deməkdir. Alpinizm, üzgüçülük, güləş, voleybol və bütün yerüstü hərəkət idmanın bütün növləri kimi həvəskar fəaliyyətin «texnikləşdirilmiş» və yüksək dərəcədə «elmiləşdirilmiş» növləri nəinki insanda yalnız sırf idman imkanlarını, həm də ciddi texnoloji vərdişləri, bacarıq və bilikləri bir tərəfdən tələb edir, digər tərəfdən isə inkişaf etdirir. Bu zaman insanda təbii surətdə təfəkkürün həm ümummədəni, həm də təbii-elmi sərvətlərə əsaslanan yeni estetik üslubu əmələ gəlir.

İdmanın bu növləri ilə məşğul olarkən ilk mərhələdə müasir elmin və texnikanın son nailiyyətləri ilə ciddi və ətraflı tanışlıq tələb edir. Olimpiya Kompleksləri çərçivəsində belə vəzifəni MKS-lərə və onun filiallarına həvalə etmək daha məqsədəuyğundur. Bu gün üçün onun strukturu, təşkilatı prinsipləri, iş formaları və tədbirlər proqramı kifayət qədər işlənməmişdir.

Bakı şəhərində Əloyunları sarayında təşkil olunan tədbirlər proqramını nümunə göstərmək olar. Həmin proqram yaradıcılıq prosesinin fəallaşdırılması metodlarının öyrənilməsi, ixtiraçılıq məsələlərinin, potentşünaslıq, kitabxanaşünaslıq əsaslarının həllinə dair nəzəriyyənin mənimsənilməsinə, elmi-texniki tərəqqi sahəsində dövlət siyasətinin öyrənilməsinə həsr edilmiş bölmələr daxildir.

Nəzərdən keçirdiyimiz proqramın bir xüsusiyyətinə də diqqət yetirmək lazımdır. Bu da elmi-texniki yaradıcılıq üzrə kitabxananın olmamasıdır. Həmçinin qeyd etmək lazımdır ki, proqramda «Yaradıcılıq prosesinin fəallaşdırılması metodları» bölməsi fəaliyyət göstərmir. Bununla belə bu bütün elmi-texniki yaradıcılıq adlandırılmasına əsas vermir: belə münasibət metodoloji səhvlə nəticələnə bilər. Yaradıcılıq insanın elə fəaliyyət prosesidir ki, o, həyat materiallarından yeni reallıq meydana gətirməyə imkan verən keyfiyyətcə yeni dəyərlər yaradır. İxtiraçının, alimin, rəssamın, təşkilatçının və i.a. yaradıcılığından danışmaq olar.

Başqa sözlə yaradıcılıq hər hansı əməyə xasdır. Lakin biz Olimpiya Kompleksi yaxud klubun, kitabxananın fəaliyyətindən danışdıqda isə bütün mədəni-maarif idarələrində olduğu kimi, başlıca xarakteristika



ondan ibarətdir ki, obyekt asudə vaxtında hər hansı bir fəaliyyətlə həvəskar kimi məşğuldur. Yəni o, öz fəaliyyəti ilə məşğuldur.

Buna görə də incəsənət, elm və texnika sahəsində həvəskar fəaliyyətdən söhbət gedəndə «xalq bədii yaradıcılığı», yaxud «texniki yaradıcılıq» demək qətiyyən düzgün deyil. Özfəaliyyət haqqında bədii, yaxud elmi-texniki özfəaliyyət haqqında danışmaq daha düzgün olardı. Bu da bilavasitə kitabxanalarla bağlıdır. Burada da ən əsas əhəmiyyətlisi ümumi təşkilati metodik xüsusiyyətlərinin nəzərə alınmasıdır.

Bununla belə texniki özfəaliyyətin mədəniyyət, Olimpiya Kompleksində onun iştirakçıları üçün mərhələlərin səmərəli sisteminin yaradılmasının təşkili elmi-texniki yaradıcılığının daha da mürəkkəb növlərinin ardıcıl mənimsənilməsi prosesində başlıca məsələ olaraq qalır.

Yaradıcı təfəkkürü və onun mənimsənilməsini Olimpiya Kompleksi şəraitində klublarla kitabxanaların birgə fəaliyətinin ən mühüm vəzifələrindən və əsas məqsədlərindən biri hesab etmək lazımdır.

Asudə vaxtın idarə olunmasının yeni forması da Olimpiya Kompleksinin yaradılmasının əsas məqsədi, əhalinin kompleks, ictimai-siyasi, əmək-estetik və fiziki tərbiyənin kompleks şəkildə inkişaf etdirilməsi və onların istirahətinin mənalı təşkili sahəsində aidiyyatından asılı olmayaraq uyğun təşkilatların maddi bazalarından tam istifadə edilməsidir.

Olimpiya Komplekslərində keçirilən hər bir tədbir bir növ klublarla kitabxanaların qarşılıqlı əlaqəsinin təzahürüdür. Belə ki, hər bir tədbirin məqsədi kitabların təbliği ilə əlaqədardır.

Olimpiya Komplekslərinin Respublikamızda uğur və problemlərinə nəzər salaq, hazırda 18 kompleks fəaliyyət göstərir və 24-ü tikilməkdədir.

1996-cı ilin son aylarından yaranmağa başlayan bu Olimpiya Kompleksinin mövcud bazaları xeyli möhkəmlənmiş, onlara daxil olan müəssisələrin işinin canlandırılmasına diqqət xeyli artmışdır. Məsələn, Şəkidə mədəniyyət ocaqları tərəfindən təşkil edilən mədəni kütləvi tədbirlərin forma və mənzərəsi də yeni keyfiyyətlərlə zənginləşmişdir. Bədii özfəaliyyət kollektivlərinin çıxışları, idman yarışları, oyunlar, kitab yarmarkaları, müharibə veteranları ilə görüşlər rayon əhalisinin asudə vaxtının mənalı və səmərəli keçirilməsinə səbəb olmuşdur. Rayonda mədəni-kütləvi tədbirlərin keçirilməsində MKS-in fəaliyyətini xüsusi qeyd etmək lazımdır. Yeniyetmələrin, uşaqların bədii və estetik zövqünü inkişaf etdirmək üçün bütün imkanlardan istifadə olunur.

Respublikamızda həyata keçirilən bütün yarışlarda Olimpiya Kompleksləri xeyli iş görmüşdür. Parklar, küçələr, meydan və stadionlar bayramsayağı bəzədilmiş, müxtəlif dillərdə şüar və transportlar asılmış, yarış emblemi vurulmuş, məşəllər alovlandırılmışdır. Bununla əlaqədar olaraq bir sıra rayonlarda mədəni-kütləvi tədbirlər həyata keçirilmişdir. Fərəhli haldır ki, Bakıda M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasında müntəzəm olaraq MDB və Dünya xalqlarının kitab bayramları keçirilir. Əloyunları sarayında keçirilən «Rus kitabı» bayramı buna parlaq bir misaldır.

Mingəçevir şəhər Olimpiya Kompleksinin yaradılması ilə əlaqədar şəhərdə mədəni-maarif müəssisələrinin tikintisi geniş vüsət almışdır. Belə ki, mədəniyyət evləri və klublarda təmir işləri aparılmış, yeni kitabxanalar tikilib istifadəyə verilmişdir.

Respublikamızda mədəni-maarif müəssisələri strukturuna daxil olan təşkilatların birgə səyi ilə əhali qarşısında yüksək səviyyədə bir çox tematik gecələr keçirilmişdir.

Respublikamızın müharibə vəziyyətində olmasına baxmayaraq rayonlarda mədəni-maarif müəssisələrinin tədbirləri xüsusilə təqdirəlayiqdir. Kitab bayramları, «Gənclik və qanun», «İdman həftəsi» və s. tədbirlər yeni milli adət və ənənələrin tətbiqi və yayılması işi, Olimpiya Kompleksinə daxil olan təşkilatların məhsulu kimi qeyd edilməlidir. Rayonlarda Olimpiya Kompleksləri və kitabxanaların birgə fəaliyyəti əhalinin vətənpərvərlik və estetik tərbiyəsində, bədii zövqün formalaşmasında, ümumiyyətlə, asudə vaxtın təşkili işində böyük rol oynayır.

Bildiyimiz kimi, Olimpiya Kompleksləri Prezidentin və müvafiq icra orqanlarının qərarı ilə yaradılır və bilavasitə onların rəhbərliyi altında fəaliyyət göstərir. Onların gündəlik fəaliyyətinə nəzarət etmək məqsədilə icra orqanlarında əlaqələndirmə şuraları yaradılmışdır. Əlaqələndirmə şurası Olimpiya Kompleksinin mədəni-tərbiyə işini uzlaşdırır, illik iş planlarını müzakirə və təsdiq edir, yerlərdə mədəniyyətin inkişafı və mədəni-maarif müəssisələrinin maddi-texniki bazalarının möhkəmləndirilməsi, onların müasir avadanlıqla təmin edilməsi, kadrların əmək və məişət şəraitinin yaxşılaşdırılması barədə təsərrüfat orqanları və ictimai təşkilatların qarşısında da təkliflər irəli sürür, eləcə də çatışmamazlıqların aradan qaldırılması üçün tədbirlər görür, kütləvi işlərin hazırlanması və keçirilməsini təmin edir, nəzərdə tutulmuş planların həyata keçirilməsi üçün mütəxəssislər dəvət edir. İctimai fəalların Olimpiya Kompleksləri işinə cəlb olunması, rəhbərlik və nəzarət edilməsi də, bilavasitə icra orqanlarının vəzifələrinə daxildir. Daha yaxşı olar ki, MKS-lər olimpiya komplekslərində səyyar kitabxanalar təşkil etsinlər.

Kitabxanalarla Olimpiya Komplekslərinin xüsusi tədbirlər planı hazırlaması və rəhbər orqanlarda təsdiq edilməsi məqsədəuyğundur. Eyni zamanda respublika şəhər və

rayon mədəniyyət və turizm şöbələri, o cümlədən kitabxanalar, onların filialları Olimpiya Komplekslərinə aid ədəbiyyatı komplektləşdirməlidir.

Buna görə də mədəni-maarif müəssisələri geniş oxucu kütlələrini, ictimaiyyəti Olimpiya Komplekslərinin işi ilə tanış etmək üçün müxtəlif kütləvi tədbirlərdən, o cümlədən görüşlərdən, oxucu konfranslarından, ilboyu davam edən kitab sərgilərindən, əyani və şifahi təbliğat formalarından, fotostendlərdən, məruzələrdən, söhbətlərdən, sual-cavabdan, biblioqrafik xülasələrdən, kinofilmlərdən və s. kimi ənənəvi formalardan səmərəli şəkildə istifadə edə bilərlər.

Olimpiya Komplekslərində kitablardan ibarət il ərzində davam edən kitab sərgisinin təşkili məqsədəuyğundur.

Tövsiyə edirik ki, Olimpiya Kompleksləri haqqında olan materiallar mövzu kartotekası şəklində hazırlanıb oxucuların istifadəsinə verilsin.

Tövsiyə edirik ki, kitabxanaların, klub və mədəniyyət evlərinin əməkdaşları Olimpiya Komplekslərinin işçiləri ilə birlikdə həm kitabxanalarda, həm Olimpiya Komplekslərində fotosərgilər təşkil etsinlər. Bu fotosərgilər aşağıdakı başlıqlar altında ola bilər: «Olimpiya çempionları», «Bizim idmançılar», «Rayon idmançıları», «Məşhur idman ustaları» və s.

Yaxşı olardı ki, klublarda, kinoteatrlarda idmana aid kinolar nümayiş etdirilsin.

Tövsiyə edirik ki, Olimpiya Komplekslərində daimi xarakter daşıyan «Olimpiya dünyası» qəzetini və «Milli Olimpiya» jurnallarından ibarət sərgilər təşkil etsinlər.

Mövzu ilə əlaqədar ədəbiyyatın siyahısını da veririk.

**B. ƏLƏSGƏROV,**
**Kitabxana siyasəti və metodiki rəhbərlik şöbəsinin bölmə müdiri**

## Ədəbiyyat

1. Əliyev İ. Heydər Əliyev və Azərbaycanın Olimpiya hərəkatı.— B.: Azərbaycan, 2002.—43s.
2. Əliyev İ. Azərbaycan Olimpiya hərəkatı.—B.:Azərbaycan,2002.—39s.
3. Ağayev H.Azərbaycan milli xalq oyunları.—B.: Azərnəşr, 1992.—77s.
4. Aslanlı M. Fiziki mədəniyyət və mənəvi kamillik.—B.: Maarif, 1993.—264s.
5. Beynəlxalq Olimpiya Komitəsi və beynəlxalq federasiyaların fəaliyyəti.— B.: ADBTA, 1999.—54s.
6. Əliyev A. Azərbaycan milli idman oyunlarının tarixi .—B.: Şərq-Qərb, 2001.—122s.
7. İslam idman ontologiyası.—B.: Ozan, 1999.— 696 s.
8. İsmayılov F. Bədən tərbiyəsinin nəzəri əsaslarının mənimsənilməsi.—B.: Maarif, 1990.— 102s.
9. Quliyev D. Bədən tərbiyəsi və idman gənc nəslin sağlamlığının rəhnidir.—B.: AzDBTİ, 1990.—56 s.
10. Musayev İ. Fiziki tərbiyənin əsasları.—B.: APİ, 1991.— 85 s.
11. Həsənov F. Fiziki tərbiyənin nəzəriyyəsi və metodikası.—B.: GDNİ, 1999.— 156 s.
12. Ulduzlar sönmür.—B.: Nurlan, 2001.—200 s.
13. Олимпийская энциклопедия – M: Современная энциклопедия, 1980. – 415 c.
14. Əliyev İ. MOK-nın prezidenti İ.Əliyevin nitqi //Azərbaycan.— 2004.— 30 dekabr.— S.1
15. Abbasov O. Azərbaycan Olimpiya meridianlarında //Respublika.— 2001.— 14 dekabr.
16. Abiyev A. Azərbaycan idmanı yüksəliş yollarında //Azərbaycan.— 2005.— 9 yanvar.— S.3
17. Aslan Q. «Şüa» İdman-Sağlamlıq Kompleksində //Respublika.— 2006.— 28 aprel.— S.8
18. Azərbaycan olimpiyadaçıları Vətənə qayıtdılar //Azərbaycan.— 2004.— 1 sentyabr.— S.3
19. Bayramov O. Qələbə sevinci // Xalq qəzeti.— 2005.— 31 iyul.— S.1
20. Əsədov B. Mən qalib gəlmək istəyirəm //Azərbaycan.— 2005.— 7 noyabr.— S.8
21. Əsgərov A. Azərbaycan beynəlxalq yarışların mərkəzinə çevrilmişdir //Azərbaycan.— 2005.— 30 oktyabr.— S.4
22. Gəncə şəhər idman ictimaiyyətinin bəyanatı //Azərbaycan.— 2005.— 5 mart.— S.4
23. Milli Olimpiya Komitəsi //Azərbaycan.—2006.— 24 may.— S.3
24. Zaqatala Olimpiya idman kompleksinin təntənəli açılış mərasimi //Azərbaycan.— 2006.—13 aprel.— S.3
25. Алиев Г. Речь президента на церемонии открытия в Нахчеване Олимпий-ского спортивного комплекса //Бакинский рабочий. 2002.- 18 июня.- C. 1-2
26. Алиев И. Речь президента в Кубинском Олимпийском спортивнов комплексе //Бакинский рабочий. – 2004.- 21 июля. – C. 3-4;
27. «АБУ арена» //Бакинский рабочий. - 2004. - 20 апреля.- C 1-2
28. Алиев И. Речь президента НОК-а //Бакинский рабочий.- 2004.- 30 декабря.- C. 1
29. Алиев И. Забота о спорте //Бакинский рабочий. -2004.- 30 декабря.- C. 1
30. Алиев И. Интервию президена НОК-а //Бакинский рабочий. – 2002.- 12 сентября.- C. 2

## Libraries and olimpic complexes
## Summary

The main duty of the National Olimpic Committee is ensure his country represents in the Olimpic Games That's why the main criterion state the value of the National Olimpic Committee is participation and showing results.